# Azərbaycan sabitlik adası, inkişaf məkanıdır

**Ölkəmizlə əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olan dövlətlərin sayının günbəgün artdığını böyük inam və qətiyyətlə bildirən dövlətimizin başçısı İlham Əliyev bu reallığı da diqqətə çatdırır ki, Azərbaycana qarşı beynəlxalq mediada ikili standartlardan qaynaqlanan ədalətsiz kampaniya aparılır**

Dövlətimizin başçısı İlham Əliyevin bu fikirləri Azərbaycanın bugünkü reallıqları barədə aydın təsəvvür yaradır: "Azərbaycan dünyada sabitlik adasıdır, inkişaf məkanıdır. Çünki Azərbaycanda xalqla iqtidar arasında birlik var, bizim bütün təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir. Bizim atılan bütün addımlarımız Azərbaycanın inkişafına xidmət edir. Ölkəmizdə ictimai, siyasi vəziyyət sabitdir, iqtisadiyyata böyük həcmdə investisiyalar qoyulur və iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atılır. Yəni, bu gün Azərbaycan nəinki regionda, dünya miqyasında seçilən ölkələrdən biridir və dünyada bizə olan maraq artır."

Davamlı uğurlar hər zaman onları şərtləndirən amillərin təhlilini bir zərurətə çevirir. Bu fikir əbəs yerə deyilmir ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından başlanan yol Azərbaycanın qarşısında yeni-yeni imkanlar açır. Ümummilli lider Heydər Əliyev öncə mövcud problemlərin həlli üçün ölkədə sabitliyin yaradılmasını vacib şərt kimi irəli sürdü. Bildirdi ki, əgər respublikada ictimai-siyasi sabitlik olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Ümummilli Lider sabitliyin möhkəmləndirilməsi, bütün sahələrdə inkişafın sürətləndirilməsi üçün atəşkəs sazişinin imzalanmasının zəruriliyini önə çəkdi və bu istiqamətdə ciddi səylər göstərməyə başladı. Nəhayət, onun gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də atəşkəs sazişi imzalandı. Azərbaycan dövləti bu addımı ilə həm ölkəmizin sonrakı inkişafına zəmin yaratdı, həm də ermənilərin əsassız torpaq iddiaları nəticəsində yaradılan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında sülh siyasətinə üstünlük verdiyini, problemin danışıqlar əsasında çözülməsinin vacibliyini bəyan etdi.

Hərtərəfli inkişaf üçün ölkədə sabitliyin rolu inkaredilməzdir. "Sabitlik bütün inkişafın əsasıdır" söyləyən ulu öndər Heydər Əliyev bildirirdi ki, heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır. Ümummilli Liderin düşünülmüş daxili siyasəti nəticəsində Azərbaycan çox qısa zamanda sabitlik diyarına çevrildi ki, bu da əlverişli biznes mühitinin yaradılmasına stimul oldu. Daim yerləşdiyi coğrafi məkana və malik olduğu təbii resurslara görə dünyanın diqqətində olan Azərbaycana müstəqilliyimizin ilk illərində maraq az olsa da, 1994-cü ildən bəri ölkədə yaradılan sabitlik bu diqqətin artmasında əhəmiyyətli rol oynadı. Məlum olduğu kimi, müstəqilliyimizin ilk illərində Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlər ölkədə ictimai-siyasi durum gərgin olduğuna görə qoyacaqları investisiyaların təhlükəsizliyinə tam əmin deyildilər. Dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışı, ölkədə daxili sabitliyin yaradılması bu tərəddüdləri aradan qaldırdı. Azərbaycan qısa müddətdə böyük investisiyalar məkanına çevrildi. Bu gün böyük fəxr hissi ilə qeyd ediriksə ki, ölkə iqtisadiyyatı-



na qoyulan investisiyaların həcmi 180 milyard dollara çatıb, bu məhz həmin dövrdə əsası qoyulan sabitliyə əsaslanır. 1994-cü il sentyabarın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizin iqtisadi imkanlarının genişlənməsinə, dünya iqtisadi sisteminə interasiyaya yol açdı.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiyalara son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuşdu ki, bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişləri cəhdlərinin qarşısı Ümummilli Liderin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanılmışdır. Məhz buna görə də ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdı ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiya təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu öndər Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur.

Demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridilərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradılmışdır. Ümummilli Lider bildirirdi ki, əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.

İqtisadi tərəqqi demokratik islahatların sürətini artırdı. Ölkəmizdə demokratik cəmiyyətin varlığını şərtləndirən bütün amillər bərqərar olundu. Qeyd etdiyimiz kimi, 1995-ci il noyabrın 12-də müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbulu Azərbaycanın hüquqi, demokratik dövlət quruculuğu yoluna işıq saldı. Konstitusiyada əksini tapan maddələrin üçdə iki hissəsi insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Ölkədə vətəndaşlara bütün azadlıqlar verilib. Sərbəst toplaşmaq azadlığı yüksək səviyyədə təmin edilir. Çoxpartiyalı sistem yaradılıb. Bu gün ölkəmizdə 40-dan artıq siyasi partiyanın, 3 minə yaxın qeyri-hökumət təşkilatının qeydiyyatdan keçməsi, onların normal fəaliyyəti üçün təkmil qanunvericilik bazasının yaradılması da demokratik inkişafın, sabitliyin əsas göstəricilərindəndir. Ulu öndər Heydər Əliyev bildirirdi ki, nə qədər partiya olur olsun, onların hamısı bir məqsədə- Azərbaycanın müstəqilliyini qorumaq, torpaqlarımızı düşməndən azad etmək işinə xidmət etməlidir. Ölkədə seçkilərin demokratik, azad, şəffaf və beynəlxalq standartlara uyğun keçirilməsi üçün təkmil seçki sistemi formalaşdırılıb. 2003-cü ilin mayında Azərbaycan hökumətinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu, həmçinin Avropa Şurası Venesiya Komissiyası ilə birgə əməkdaşlığı nəticəsində Seçki Məcəlləsi qəbul olunub. Bu sənəd ölkədə prezident, parlament və bələdiyyə seçkilərinin beynəlxalq standartlara uyğun keçirilməsini şərtləndirir.

Azad mətbuatın inkişafı dövlətin siyasətinin əsas tərkib hissəsinə çevrildi. Bütün bunlar ölkəmizin beynəlxalq nüfuzunu gücləndirdi, Azərbaycan dünyanın nüfuzlu təşkilatlarına üzv qəbul edildi. 2001-ci ilin yanvarında Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması dövlətimizin demokratik prinsiplərə sadiqliyinin bariz nümunəsi idi. Ulu öndər Heydər Əliyev bildirirdi ki, demokratiya bizim strateji kursumuzun əsas mahiyyətini təşkil edir. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz.

Sonrakı mərhələlərdə Azərbaycanın müstəqilliyimizin ilk illərində yaşadığı duruma bir daha diqqət yönəldən ulu öndər Heydər Əliyev bildirirdi: "Biz bütün bu çətinliklərdən keçdik, bütün maneələrin qarşısını aldıq, Azərbaycanın düşmənlərinə layiqli cavablar verdik, ölkəmizin dövlət müstəqilliyini qoruduq, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdik. Azərbaycanın dövlət müstəqilliyi yaşadıqca və bundan sonra da yaşadacağıq!"

2003-cü ildən Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurlu davamı Azərbaycanın ən yüksək zirvələri fəth etməsini şərtləndirdi. Hazırda Azərbaycanın adı dünyanın 10 xoşbəxt, islahatçı ölkəsinin sırasında çəkilir. İqtisadi imkanlarını günbəgün genişləndirən ölkəmizin beynəlxalq nüfuzu artır, əsl söz sahibinə çevrilir. Azərbaycanda sabitliyin, iqtisadi inkişafın davamlılığı yeni-yeni hədəflərə yol açmaqla yanaşı, yeni-yeni tərəfdaşları qazanmasına da stimul verir. Ötən il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasının 20 illiyində "Cənub" qaz dəhlizinin təməlinin qoyulması çoxtərəfli əməkdaşlığın genişləndirilməsinə yönələn addım kimi dəyərləndirildi. Azərbaycan təşəbbüsləri gerçəkliyə çevirən ölkə kimi beynəlxalq aləmdə və yeri və rolunu möhkəmləndirməkdədir.

Təbii ki, bu uğurları şərtləndirən amillər sırasında iqtisadi və siyasi islahatların paralel şəkildə aparılması xüsusi qeyd etməliyik. Ölkəmizin demokratiya təcrübəsi digər dövlətlərə nümunə göstərilir. Bu gün Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlər üçün əsas məkan seçilməsində də demokratik inkişafı əhəmiyyətli rol oynayır. Ölkəmizdə olan qonaqlar inkişafdan heyrətlərini gizlətməyərək, dövlətimizin həyata keçirdiyi siyasətə xalqın dəstəyini böyük məmnunluq hissi ilə qeyd edirlər. İnsan amilinin dövlətimizin siyasətində əsas yer tutması beynəlxalq səviyyədə təqdir olunur.

Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunu tutan Azərbaycan atdığı hər addımında bu prinsiplərə sadiqliyini təsdiqləyir. Dövlətimizin başçısı İlham Əliyev daim bildirir ki, atılan addımlar hansısa təşkilata, dövlətə xoş gəlmək deyil, Azərbaycanın uğurlu gələcəyi üçündür. Məlum olduğu kimi, qarşıdakı illər üçün əsas hədəf Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görməkdir.

Uğurlarımıza qısa baxış bu gerçəkliyi bir daha təsdiqləyir ki, möhkəm təməl üzərində qurulan Azərbaycan inkişaf yolunda inamla irəliləyir. Qarşıdakı illərdə ölkəmizi daha böyük uğurlar gözləyir. Bu inamı yaradan əsas amil isə Heydər Əliyev siyasəti və xalqın bu siyasətə böyük dəstəyidir. Dövlətimizin başçısı İlham Əliyevin Yeni Azərbaycan Partiyasının V qurultayında səsləndirdiyi bu fikirləri bir daha xatırlatmaq istərdik: "Qürur hissi ilə deyə bilərəm ki, bugünkü Azərbaycan Ulu Öndərin görmək istədiyi kimi inkişaf edir, onun qoyduğu yolla gedir, güclənir, möhkəmlənir və çox güclü regional amilə çevrilibdir."

Təbii ki, uğurlarımıza sevinən qüvvələrlə yanaşı, sevinməyənlər də var. Bu günlərdə milli mətbuatın yaradılmasının 140 illiyi münasibətilə Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşündə dövlətimizin başçısı İlham Əliyev bu məqama xüsusi diqqət yönəltmişdir. "Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır və beynəlxalq aləmdə Azərbaycanın çox gözəl nüfuzu vardır. Əgər belə olmasaydı bir neçə il bundan əvvəl 155 ölkə Azərbaycanı BMT Təhlükəsiz Şurasına qeyri-daimi üzv seçməzdi" söyləyən cənab İlham Əliyev bildirmişdir ki, Azərbaycana qarşı beynəlxalq mediada ədalətsiz kampaniya aparılır. Bu kampaniya ona görə ədalətsizdir ki, ikili standartlar əsasında qurulubdur: "Hər bir ölkədə qüsurlar, çatışmayan cəhətlər və sair var. Biz özümüz onları yaxşı bilirik və həll etməyə çalışırıq. Ancaq ümumi regional kontekstdən Azərbaycanı seçib hədəfə çevirmək, əlbəttə ki, ikili standartlar və antiazərbaycan siyasətinin əlamətidir. Xüsusilə, önəmli beynəlxalq tədbirlər ərəfəsində bu kampaniya daha da ciddi formalar alır və bizə qarşı əlaqələndirilmiş şəkildə hücumlar təşkil edilir. Biz bunu Avropa Oyunları ərəfəsində bir daha gördük və bu, mənim üçün sürpriz deyildi. Əksinə, bu, belə olmasaydı mənim üçün sürpriz ola bilərdi. Bunun müxtəlif səbəbləri var. Siz də bunları yaxşı bilirsiniz. Həm Azərbaycanın müstəqil siyasəti, Azərbaycanın uğurları, Qərbdə islamofobiya meyillərinin gücləndirilməsi. Ümumiyyətlə, hər bir ölkənin yerinin müəyyən edilməsi siyasəti var. Elə bil ki, kimsə burada bu ölkələrin reytinqini, yaxud da, tutduğu yerləri müəyyən etməyə çalışır." Dövlətimizin başçısı bu reallığı da böyük inam və qətiyyətlə diqqətə çatdırmışdır ki, bu kampaniya Azərbaycanın daxili və xarici siyasətinə heç bir təsir etməmişdir və heç vaxt etməyəcək. Çünki bizim siyasətimizin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və onun maraqlarıdır.

Möhkəm təmələ əsaslanan siyasət nəticəsində Azərbaycanın bugünkü reallıqlarına beynəlxalq baxışın yüksək səviyyədə olmasının mühüm göstəricilərindən biri də məhz ölkəmizin beynəlxalq tədbirlər üçün əsas məkan seçilməsidir. İctisadi tərəqqi, daxili sabitlik, xalq-iqtidar birliyinin sarsılmazlığı qarşıya qoyulan hər bir məqsədə yüksək səviyyədə nail olmağa əsas verir. Azərbaycan qarşıdakı illərdə inkişaf etmiş ölkələr sırasında addımlamaqla bir daha düzgün qurulan siyasətin uğurlarını dünyaya təqdim etmiş olacaq.

**Yeganə Əliyeva,**
***"İki sahil"***